

# BÖYÜK ZƏFƏR YOLU

Daycest

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

AZƏRBAYCAN
MİLLİ
KİTABXANASI

# BÖYÜK ZƏFƏR YOLU

## Daycest

BAKI – 2025

**Tərtibçi**: **Aygün Koçak**

**İxtisas redaktoru:** **Kərim Tahirov,**
*Professor, Əməkdar mədəniyyət işçisi*

**Böyük Zəfər Yolu**: daycest: [Elektron resurs] /Tərt. A.Koçak; İxtisas red. K.Tahirov.- Bakı, 2025.- 25 s.

**© Azərbaycan Milli Kitabxanası, 2025**

## Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, “yeni ərazilər uğrunda yeni müharibə” çağırışı, mülki şəxslərdən ibarət

“könüllü dəstələri” yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-

istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə qərara alıram:

1. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 3 dekabr 2020-ci il.

# TƏRTİBÇİDƏN

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə 2020-ci il sentyabrın 27-dən etibarən başladığı zəfər yürüşündə inanılmaz uğurlar əldə etmişdir.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edilmişdir.

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edilmişdir. Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan olmuşdur.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən işğalından qurtarılması müharibənin taleyində həlledici rol oynamışdır. Bütün bunlar Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələnmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərancamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan

Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli digər Sərancamı ilə Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması qərara alınmışdır.

Şanlı Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsinin beşinci ildönümü münasibətilə hazırlanmış bu daycestdə mövzu ilə bağlı 2020-2025-ci illərdə dövri mətbuat səhifələrində dərc edilmiş məqalələr araşdırılmış və seçmə yolu ilə istifadəçilərin diqqətinə çatdırılmışdır. Məqalələr illər üzrə, daxildə isə əlifba ardıcıllığı ilə verilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya ünvanlayan mütəxəssis və oxuculara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

Ünvan: AZ-1000, Bakı şəh., Xaqani küç. 57
E-mail: contact@anl.az
URL: www.millikitabxana.az

# MƏQALƏLƏR

## 2020

***Aslanova, E.Y. Zəfər günü /Esmira Yazkan Aslanova //Respublika.- 2020.- 13 noyabr.- S.7.***
***http://www.anl.az/down/meqale/respublika/2020/noyabr/728441.htm***

"Respublika" qəzetinin Türkiyə üzrə müxbirinə olan açıqlamasında İstanbul Türkiyə-Azərbaycan Dərnəyinin (İSTAD) sədri Səfər Karakoyunlunun qardaş Azərbaycanda baş verənlərin bütün türk dünyası tərəfindən böyük həyəcan və maraqla izləndiyi haqqında fikirləri yer alıb. O, bildirib ki, bütün türk dünyasının musiqi beşiyi, Azərbaycanın mədəniyyət paytaxtı, Qafqazın incisi tarixi Şuşa şəhərinin işğaldan azad edilməsi ilə xalqın milli-mənəvi dəyərlərinin məhv olmasının qarşısı alındı, millət yenidən mənəvi istiqlalına qovuşdu.

***Bayramov, V. Milli qürurumuzun Zəfər sevinci /Vaqif Bayramov //Xalq qəzeti.- 2020.- 10 dekabr.- S.8.***
***http://www.anl.az/down/meqale/xalqqazeti/2020/dekabr/748117.htm***

Azərbaycan Ordusunun döyüş qabiliyyəti və əzmi, möhkəm maddi-texniki bazası, ordu-xalq-Prezident birliyinin qısa müddətdə ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində möhtəşəm uğurları şərtləndirdiyini qeyd edən müəllif Azərbaycan

Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun sentyabrın 27-də Qarabağda Ermənistan silahlı qüvvələrinə qarşı başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək düşmənin həm canlı qüvvə, həm də texnika baxımdan böyük itkilər verdiyini, 5 şəhər, 4 qəsəbə və 286 kəndin düşməndən təmizləndiyini, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz zirvələri, habelə daha 5 adsız yüksəkliyin azad olunduğunu bildirib.

Məqalədə həmçinin, noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanatın imzalanması, bəyanata əsasən, dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonlarının Azərbaycana təhvil verildiyi və bununla da ermənilərin "Böyük Ermənistan" və "Dağlıq Qarabağ respublikası" xülyalarına birdəfəlik son qoyulduğu diqqətə çatdırılıb.

***Bünyadzadə, K. Haqq yolunun Zəfər zirvəsi /Könül Bünyadzadə //Azərbaycan.- 2020.- 30 sentyabr.- S.10.***
***http://www.anl.az/down/meqale/azerbaycan/2020/sentyabr/720197.htm***

Məqalədə Azərbaycan Prezidentinin dönə-dönə öz çıxışlarında hər bir vətəndaşın rifahının, təhlükəsizliyinin nə dərəcədə böyük əhəmiyyət daşıdığını vurğulaması haqqında bəhs olunur, müharibə dövründə xalqda əzm, iradə, mənəvi gücün özünü daha açıq göstərdiyi, xalqın Liderinin həmişə olduğu kimi onunla bir yerdə olması və Azərbaycan xalqına məxsus bir qürur və vüqarla çağırışlar etməsindən yazılır.

***Kamal, R. Zəfər yürüşü /Rüstəm Kamal //Azərbaycan.- 2020.- 6 noyabr.- S.1; 6.***
***http://www.anl.az/down/meqale/azerbaycan/2020/noyabr/728062.htm***

Yazıda münaqişənin uzanması, "sülh" danışıqlarının nəticəsizliyi, Minsk qrupu həmsədrlərinin məsələyə məsuliyyətsiz yanaşmasının Azərbaycan cəmiyyətində ağrılı qarşılandığı diqqətə çatdırılır, həmçinin ordu quruculuğu istiqamətində görülən ciddi tədbirlərin döyüş meydanında özünü təsdiq etdiyi, bunun isə Prezident İlham Əliyevin vaxtında həyata keçirdiyi məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olduğu vurğulanır.

Eyni zamanda, Zəfərin uzun illər tarixi torpaqlarını itirməyə məhkum olmuş Azərbaycan xalqının milli mənliyini, gücünü özünə qaytardığı, tarixi ədaləti bərpa etdiyi qeyd edilir.

***Məmmədov, Q. Zəfər günü və qələbə paradı /Qurban Məmmədov //Mədəniyyət: jurnal.- 2020.- noyabr-dekabr.- S.6-8.***
***http://www.anl.az/down/meqale/medeni_az/2020/noyabr-dekabr/759502(meqale).pdf***

Məqalədə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş və Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı haqqında məlumat verilir, paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin, həmçinin Vətən müharibəsi zamanı

Azərbaycan Ordusunun düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin də nümayiş olunduğu vurğulanır.

## 2021

***Abdullayev, M. Cığır idi... Zəfər yolu oldu /Mübariz Abdullayev //Yeni Azərbaycan.- 2021.- 12 noyabr.- S.5.*** ***http://www.anl.az/down/meqale/yeni_az/2021/noyabr/766294.htm***

Yazıda müəllifin Şuşanın işğaldan azad edilməsi, 30 ilə yaxın davam edən əzabdan xilası, şəhərin ruhunun yenidən canlanması, hərbçilərimizi Şuşaya aparan cığırın Zəfər yoluna çevrilməsi kimi fikirləri yer almışdır.

***Cəfərov, N. Zəfər yolumuzun zamana örnək yürüşləri /Nizami Cəfərov //525-ci qəzet.- 2021.- 8 yanvar.- S.19.*** ***http://www.anl.az/down/meqale/525/2021/yanvar/735682.htm***

Məqalədə Ali Baş Komandanın Vətən müharibəsinin 3-cü günündə ilk müsahibəsini, 43-cü günündə isə müharibəyə dair son müsahibəsini verdiyi qeyd edilir və bu müsahibələrin Ali Baş Komandanın otuza yaxın olan bu müsahibələrinin bir kitab formatında nəşr olunaduğu vurğulanır. Kitabın ilk olaraq "Qanun nəşriyyatı" tərəfindən hazırlandığı və təkcə müsahibələri deyil, habelə Prezidentin "zəfər çıxışları"nı, "zəfər görüşləri"ni və "zəfər tvitləri"ni də əhatə

etdiyi bildirilir. “Zəfər Yolu” adlanan 22 çap vərəqi həcmində olan bu kitabda Ali Baş Komandanın 44 günlük Vətən müharibəsindəki informasiya fəaliyyəti dörd bölməyə ayrılır və bu bölgülərin hamısı “zəfər” leksemi ilə başlayır: “Zəfər çıxışları”, “Zəfər müsahibələri”, “Zəfər görüşləri”, “Zəfər tvitləri”.

Yazıda həmçinin, Prezidentin “Əl-Cəzirə”, “TRT Haber”, “CNN-Türk”, “Euronews”, “CNN İnternational”, “Haber Qlobal”, “Franc 24”, Yaponiyanın “Nikkei”, ABŞ-ın “Foks News”, İtaliyanın “RAİ-1”, Almaniyanın ARD, “BBC news” kimi transmilli TV kanallarına müsahibələrindəki möhtəşəm diplomatik gedişlərinin Rusiyanın “Perviy kanal”ına, RBK-aya TV-lərə, “RİA-novosti”, TASS, “İnterfaks” kimi informasiya agentliklərinə bir növ obyektivlik dərsləri verməsi haqqında da məlumat yer alır.

***Əliyev, Ş. Şanlı zəfər yolu /Şəhriyar Əliyev //Respublika.- 2021.- 12 noyabr.- S.9.***
***[http://www.anl.az/down/meqale/respublika/2021/noyabr/766252(meqale).pdf](http://www.anl.az/down/meqale/respublika/2021/noyabr/766252(meqale).pdf)***

Məqalədə 44 günlük Vətən müharibəsində xalqımızın əldə etdiyi qələbənin bir sıra amilləri olaraq Silahlı qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə məharəti, öz xalqı ilə vəhdətdə olan liderlik şəxsiyyəti, iqtisadi güc faktoru, daxili vəhdət, milli birlik, vahid amal uğrunda həmrəylik, güclü siyasi iradə, xalq-iqtidar birliyi, beynəlxalq səviyyədə əldə edilmiş nailiyyətlər, ordu quruculuğu kimi səbəblər göstərilir.

***Nağıyev, M. 8 noyabr Zəfər Günü - Həmrəylikdən Dəmir yumruğa gedən yol /Muxtar Nağıyev //Səs.- 2021.- 6 noyabr - S.11.***
***http://www.anl.az/down/meqale/ses/2021/noyabr/765918(meqale).pdf***

Yazıda yürüdülmüş gərgin siyasi-diplomatik fəaliyyət və ordumuzun yüksək peşəkarlığı nəticəsində əldə edilmiş ərazi bütövlüyümüzün, haqq və ədalətin bərpa olunduğu 8 noyabr tarixinin Zəfər Günü kimi qeyd edilməsi haqqında bəhs edilir.

***Süleymanov, M. Tarixi Qurtuluşdan başlanan böyük Zəfər yolu /Mehman Süleymanov //Xalq qəzeti.- 2021.- 2 iyul.- S.5.***
***http://www.anl.az/down/meqale/xalqqazeti/2021/iyul/749715(meqale).pdf***

Müəllif məqalədə xalqın mübarizə gücünün təşkilatlandırılması, səfərbər edilməsi və milli maraqlar müstəvisində istiqamətləndirilməsi nəticəsində Ulu öndər Heydər Əliyevin güclü ordunun yaradılmasına nail olmasını vurğulayır, son illər ordunun infrastrukturasının yenilənməsi, kadr hazırlığının dünya təcrübəsi səviyyəsinə qaldırılması, şəxsi heyətə qayğının daha da artırılması nəticəsində isə qoşunların döyüş hazırlığına yeni tələblərin irəli sürülməsinin ordunun döyüş qüdrətini yüksəltdiyi haqqında danışır. Həmçinin bildirir ki, Azərbaycanın güclü dövləti, güclü xalqı və güclü ordusu dəmir yumruğa çevrildi, çoxlarının təsəvvür edə bilməyəcəyi bir qüdrəti özündə əks etdirdi, himayədarlarının yardımı ilə Azərbaycan torpaqlarında əbədilik kök salacaqlarına şübhə etməyərək ermənilərə

və dünya ermənilиyinə, eləcə də onların işğalçılığı qarşısında vicdan səslərini unutmuş böyük qüvvələrə layiq olduqları dərs verildi.

## 2022

***Hüseynova, R. Zəfər günü - Xalqımızın birliyi, gücü ilə milli qürurumuzun təntənəsi /Rəfiqə Hüseynova //Səs.- 2022.- 4 noyabr.- S.2.***
***http://www.anl.az/down/meqale/ses/2022/noyabr/822510(meqale).pdf***

Məqalədə noyabrın 8-də Şuşanın geri alınması, 9-da 70-dən artıq kənd, 1 qəsəbə, 8 strateji yüksəkliyin düşmən işğalından azad edilməsi, düşmənin digər tör-töküntülərinin isə yarımmühasirə vəziyyətinə düşməsi, 10-da Ermənistanın "ağ bayraq" qaldıraraq kapitulyasiya bəyannaməsini imzalaması, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin 1 dekabra kimi 3 rayonun – Kəlbəcər, Ağdam və Laçının müharibəsiz və deməli, qansız, şəhidsiz qaytarılmasını nəzərdə tutan birgə bəyanatı imzalamasının hərb tariximizə Zəfər Həftəsi kimi həkk olunması haqqında danışılır.

***Qələndərli, N. Qayıdışdan Qurtuluşa... Qurtuluşdan Böyük Qayıdışa!: 29 il əvvəl bu gün - Naxçıvandan Bakıya... Bu gün - Zəfər yolu ilə Şuşaya, Qarabağa! /Nurlan Qələndərli //Yeni Azərbaycan.- 2022.- 9 iyun.- S.2.***

***http://www.anl.az/down/meqale/yeni_az/2022/iyun/800925(meqale).pdf***

Məqalədə Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayında Naxçıvandan Bakıya Qayıdışı, Azərbaycanın Qurtuluşunu təmin etməsi, İlham Əliyevin isə Qayıdışdan başlanan Qurtuluş sayəsində təməli qoyulan Zəfər yolu ilə Azərbaycanı Şuşa zirvəsinə, Qarabağ məqamına yüksəltməsi, xalqımızın Böyük QAYIDIŞ arzusunu reallaşdırması haqqında yazılıb.

***Nəcəfli, P. Zəfər Günü - yalnız irəli... /Polad Nəcəfli //525-ci qəzet.- 2022.- 6 noyabr.- S.7.***
***http://www.anl.az/down/meqale/525/2022/noyabr/822921.htm***

Müəllif ölkəmizin 30 illlik işğal dövründə sadəcə kağız parçasına çevrilmiş BMT Təhlükəsizlik Şurasının münaqişənin həlli ilə bağlı qəbul etdiyi dörd qətnaməsinin tələblərini özümüzün icra etməyimiz məsələsinə toxunur, hazırda işğaldan azad edilən ərazilərimizdə dövlət başçımız İlham Əliyevin şəxsi nəzarətində gedən geniş abadlıq və quruculuq işlərindən danışır.

***Şəfiyeva, G. Azərbaycan tarixində qızıl hərfli zəfər günü /Gülgün Şəfiyeva //Səs.- 2022.- 28 oktyabr.- S.12.***
***http://www.anl.az/down/meqale/ses/2022/oktyabr/821454(meqale).pdf***

Müəllif erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırım, terror aktı və təcavüz siyasətinin iki əsrdən çox

tarixinin olması məsələsinə toxunur, 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi, işğalçıların 30 il ərzində qurduqları istehkamların məhv edilməsi, 30 illik münaqişəyə son qoyulması barədə yazır.

## 2023

***Abdullayev, M. Böyük Zəfərə aparan tərəqqi yolu: Heydər Əliyev əsrinin 23-cü ili /Mübariz Abdullayev //Yeni Azərbaycan.- 2023.- 24 may.- S.5.***
***http://www.anl.az/down/meqale/yeni_az/2023/may/851850(meqale).pdf***

Məqalədə müəllif respublikamızı böyük Zəfərə aparan yolun Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və sonrakı mərhələdə Prezident İlham Əliyevin inamla davam etdirdiyi tərəqqi siyasətindən keçdiyini yazır, Qələbənin təmin olunmasında əsas amillərdən biri olan iqtisadi müstəqillikdən bəhs edir, Şuşa Zəfərinə toxunur.

***Əliyev, B. Zəfər sənindir, Azərbaycan!: 8 noyabr Zəfər Günü /Bəxtiyar Əliyev //Hərbi And.- 2023.- 17 noyabr, №42.- S.5.***
***http://www.anl.az/down/meqale/herbi_and/2023/noyabr/877491(meqale).pdf***

Yazıda "N" hərbi hissəsində 8 Noyabr - Zəfər Gününə həsr olunmuş "Zəfər sənindir, Azərbaycan!", həmçinin, Yasamal rayonu

Cəfər Cabbarlı adına 161 nõmrəli tam orta məktəbdə qeyd edilmiş "Xarı bülbül qoxulu Zəfər Günü" adlı tədbirlərdən danışılır.

***Quliyev, B. Zəfər Günü: yalnız O bacardı /Bəhruz Quliyev //Səs.- 2023.- 8 noyabr, №206.- S.5.***
***[http://www.anl.az/down/meqale/ses/2023/noyabr/878580(meqale).pdf](http://www.anl.az/down/meqale/ses/2023/noyabr/878580(meqale).pdf)***

Müəllif "Qarabağ problemi"nin birdəfəlik bağlanmasına səbəb olan birgünlük lokal xarakterli antiterror tədbirlərindən, nəticədə bərpa olunmuş ərazi bütövlüyümüz və suverenliyimizdən, həmin 44 gündə həyata keçirilmiş əks-həmlə əməliyyatlarından, ordumuzun şücaətlərindən danışır, çoxəsrlik tariximizin ən parlaq səhifələrindən olan Zəfərimizin sonsuz qürur və fəxarət hissi ilə qeyd edilməsindən yazır.

***Möhbaliyev, S. Qələbələr Komandanı /Səttar Möhbalıyev //Azərbaycan.- 2023.- 7 noyabr, №244.- S.3.***
***[http://www.anl.az/down/meqale/azerbaycan/2023/noyabr/875263(meqale).pdf](http://www.anl.az/down/meqale/azerbaycan/2023/noyabr/875263(meqale).pdf)***

Məqalədə Ulu öndər Heydər Əliyevin axıra çatdıra bilmədiyi taleyüklü məsələlərin Prezident İlham Əliyev tərəfindən başa çatdırılması, 200 illik erməni xülyasının üzərindən birdəfəlik xətt çəkilməsi, Zəfərdən dərhal sonra Böyük qayıdış proqramının icrasının reallaşdırılması, işğaldan azad edilmiş ərazilərimiz üzrə şəhər günlərinin təsis edilməsi və ümumilikdə Prezident İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinin əsas qayəsindən bəhs olunur.

***Sultanova, P. Zəfər Günü - Azərbaycanın qüdrətinin rəmzi /Pərvanə Sultanova //525-ci qəzet.- 2023.- 2 noyabr, №199.- S.5.***
***http://www.anl.az/down/meqale/525/2023/noyabr/874449.htm***

Yazıda 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusunun sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başlayaraq 44 gün davam edən Vətən müharibəsi nəticəsində torpaqlarımızın otuz ilə yaxın işğalına son qoymasından bəhs edilir, eyni zamanda, müharibədə qələbəmizi şərtləndirən əsas amillərdən birinin Azərbaycan xalqının öz dövləti, ordusu ətrafında bir yumruq kimi birləşməsi, həmrəylik göstərməsi, insanlarımızın yaşından asılı olmayaraq könüllü döyüşə yollanmaq istəyi, mübarizə əzmi olduğu vurğulanır. Müharibənin ilk günlərindən ordumuzun üstünlüyü ələ alması nəticəsində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhərinin işğaldan azad edildiyini xatırladan müəllif Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun düşmənin illərlə qurduğu və keçilməz deyilən istehkamlarını yara bildiyi, hər bir kənd, şəhər, yaşayış məntəqəsi uğrunda gedən döyüşün ayrıca qəhrəmalıq nümunəsinə çevrildiyi qeyd olunur.

## 2024

***Əliyeva, İ. Böyük tarixdən başlanan Zəfər yolu: 1993-cü il 24 iyun tarixi Azərbaycanın dövlətçilik salnaməsinin şərəfli səhifələrindəndir /İradə Əliyeva //Azərbaycan.- 2024.- 23 iyun, №129.- S.4.***
***[http://www.anl.az/down/meqale/azerbaycan/2024/iyun/900705.htm](http://www.anl.az/down/meqale/azerbaycan/2024/iyun/900705.htm)***

1993-cü il 24 iyun tarixini Azərbaycanın dövlətçilik salnaməsinin şərəfli səhifələrindən adlandıran müəllif Ulu Öndərin Azərbaycanın yaxın onilliklərdə böyük inkişafı üçün möhkəm təməllər formalaşdırdığını, nüəyyənləşdirdiyi inkişaf yolunun dönməzliyini, əbədiliyini təmin etdiyini qeyd edir, Heydər Əliyevin strateji inkişaf kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ulu Öndərin ideyalarının işığında dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə gətirib çatdırdığını vurğulayır. Eyni zamanda, bu gün Qarabağda, Şərqi Zəngəzurda aparılan quruculuq-bərpa işləri, azad torpaqlarımızın inkişafa qovuşması, Azərbaycanın regionun lider dövləti kimi bütün dünyada getdikcə yüksələn nüfuzunun, ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə gerçəkləşən qlobal layihələrin Ümummilli Liderin çin olan, gerçəkləşən arzuları olduğunu yazır.

***Fərəcova, Z. Böyük Zəfər yolu...: Qarabağ Azərbaycandır! /Zöhrə Fərəcova //Azərbaycan.- 2024.- 3 aprel, №68.- S.8.***
***[http://www.anl.az/down/meqale/azerbaycan/2024/aprel/886122(meqale).pdf](http://www.anl.az/down/meqale/azerbaycan/2024/aprel/886122(meqale).pdf)***

Məqalədə 2016-cı ilin aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhəboyu Azərbaycan mövqelərinin və yaşayış məntəqələrinin Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qalması ilə başlayan 4 günlük Aprel döyüşləri zamanı düşmən hücumunun qarşısının alındığı, düşmənə layiqli cavabın verildiyi və Şanlı Zəfərə yolunun məhz o döyüşlərdən başladığı haqqında bəhs edilir.

***Məhərrəmov, V. Zəfər tariximizin başlandığı sentyabr...: Zəfər salnaməsi /Vahid Məhərrəmov //Azərbaycan.- 2024.- 11 sentyabr, №197.- S.6.***
***http://www.anl.az/down/meqale/azerbaycan/2024/sentyabr/909036(meqale).pdf***

Məqalədə 27 sentyabr 2020-ci ilin tariximizə torpaqlarımızın azadlığı uğrunda döyüşlərin başladığı gün – Anım günü kimi, 12 sentyabr 2022-ci ilin ordumuz tərəfindən erməni separatçılarına bir-birinin ardınca güclü zərbələr endirilən uğurlu “Qisas” əməliyyatının keçirildiyi gün kimi yazılması, 19 sentyabr 2023-cü ilin isə separatçılara qarşı sonuncu döyüşün başlandığı gün kimi tarixə düşdüyü və bununla Qarabağa əbədi sülh gəldiyi haqqında yazılır.

***Məhərrəmov, V. Zəfər yolu ilə Şuşaya doğru: Vətən müharibəsinin möhtəşəm Zəfəri /Vahid Məhərrəmov //Azərbaycan.- 2024.- 29 oktyabr, №238.- S.6.***
***http://www.anl.az/down/meqale/azerbaycan/2024/oktyabr/916380(meqale).pdf***

***//Azərbaycan.- 2024.- 30 oktyabr, №239.- S.7.***
***[http://www.anl.az/down/meqale/azerbaycan/2024/oktyabr/916833(meqale).pdf](http://www.anl.az/down/meqale/azerbaycan/2024/oktyabr/916833(meqale).pdf)***
***//Azərbaycan.- 2024.- 31 oktyabr, №240.- S.8.***
***[http://www.anl.az/down/meqale/azerbaycan/2024/oktyabr/917098(meqale).pdf](http://www.anl.az/down/meqale/azerbaycan/2024/oktyabr/917098(meqale).pdf)***

Qarabağdan hazırlanmış reportajda müəllif Şuşaya, Şuşanın giriş qapısı olan Daşaltı kəndinə səfərindən yazır, "Daşaltı əməliyyatı"nı xatırlayır, Yuxarı Gövhər ağa məscidinə, Cıdır düzünə, Molla Pənah Vaqifin məqbərəsinə, İsa Bulağına olan ziyarətlərini şərh edir.

## 2025

***Baxşəliyev, R. Zəfər diplomatiyası: İlham Əliyevin müstəqil xarici siyasəti sayəsində Azərbaycanın müasir tarixinin qürurlu və şərəfli dövrü yazılır /Rəşad Baxşəliyev //Azərbaycan.- 2025.- 10 iyul, №13.- S.4.***
***[http://www.anl.az/down/meqale/azerbaycan/2025/iyul/958327(meqale).pdf](http://www.anl.az/down/meqale/azerbaycan/2025/iyul/958327(meqale).pdf)***

Yazı hər ilin iyul ayının 9-da qeyd edilən Azərbaycan diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı gününə həsr edilmişdir. Azərbaycanın uğurlu xarici diplomatiya strategiyasından bəhs edilən məqalədə müəllif ölkənin suverenliyini tam təmin edən, onu qloballaşan dünyada təhlükəsizlik adasına çevirən bir siyasəti Zəfər diplomatiyası adlandırır.

***Əlăddinqızı, N. Tarixi Zəfərimizin başlanğıcı - Aprel döyüşləri /Nəzakət Əlăddinqızı //Səs.- 2025.- 4 aprel, №54.- S.4.***
[***http://www.anl.az/down/meqale/ses/2025/aprel/940886(meqale).pdf***](http://www.anl.az/down/meqale/ses/2025/aprel/940886(meqale).pdf)

2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş vermiş hərbi münaqişədən yazılan məqalədə qisas cavab əməliyyatı nəticəsində ordumuzun qarşısında duran vəzifələrdən və 44 gün davam edən müharibənin gedişində qazanılmış möhtəşəm qələbələrdən danışılır.

***Quluzadə, N. Qurtuluş günümüz - Zəfər günümüz! /Natiq Quluzadə //Səs.- 2025.- 12 iyun, №100.- S.12.***
[***http://www.anl.az/down/meqale/ses/2025/iyun/953975(meqale).pdf***](http://www.anl.az/down/meqale/ses/2025/iyun/953975(meqale).pdf)

Ulu Öndər Heydər Əliyevin ölkənin və xalqın ən ağır vaxtında hakimiyyətə gəlişindən, ölkəni, dövlətçiliyimizi, müstəqilliyimizi və milli ideologiyamızı daxili və xarici düşmənlərdən qurtarmasından söz açılan məqalədə onun ən böyük arzusu olan Azərbaycanı bütöv görmək vəsiyyətinin 2020-ci ildə reallaşmasından da danışılır.

***Mehdiyev, H. Zəfər tariximizin başlanğıcı /Həmid Mehdiyev //525-ci qəzet.- 2025.- 11 iyun, №99.- S.7.***

[***http://www.anl.az/down/meqale/525/2025/iyun/953857.htm***](http://www.anl.az/down/meqale/525/2025/iyun/953857.htm)

Məqalədə qeyd edilir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davam edən işğalı, getdikcə gərginləşən iqtisadi-siyasi, sosial vəziyyətin ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi və bu vaxtda hakimiyyətin sükanı arxasına Ulu öndər Heydər Əliyev keçdi. Onun düşünülmüş, inkişafa və təhlükəsizliyə yönəlmiş uğurlu siyasəti, uzaqgörənliyi bu günkü zəfərlərə yol açdı, bütövlüyümüzü bərpa etdi.

***Orucova, N. Zəfərimizin formulu: Güclü dövlət - Güclü Lider /Nigar Orucova //İki sahil.- 2025.- 9 aprel, №57.- S.3.***
[***http://www.anl.az/down/meqale/iki_sahil/2025/aprel/941550.htm***](http://www.anl.az/down/meqale/iki_sahil/2025/aprel/941550.htm)

Məqalədə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsi və antiterror tədbirləri zamanı yüksək sərkərdəlik məharəti nümayiş etdirməsindən, onun bütün proseslərə şəxsən nəzarət edərək, həm hərbi əməliyyatların, həm də diplomatik və informasiya müharibəsinin idarə olunmasını dəqiq şəkildə koordinasiya etmsindən danışılır. Eyni zamanda, döyüş meydanında uğurun əsas amillərindən biri olan operativ qərar qəbul etməyi bacarması, hərbi əməliyyatların gedişatını incə detallarına qədər bilməsi və verilən tapşırıqların konkret məqsədlərə yönəlməsindən bəhs olunur. Azərbaycanın müasir hərbi texnologiyaları və strategiyaları effektiv şəkildə tətbiq etməsi, eləcə də beynəlxalq arenada haqlı mövqeyinin gücləndirilməsinin onun liderliyinin

nəticəsi olması, xarici medialara çoxsaylı müsahibələrində Azərbaycan həqiqətlərini qətiyyətlə və inamla müdafiə edərək diplomatik sahədə də qələbəyə nail olduğu və beləliklə, cənab İlham Əliyevin sərkərdəlik məharəti və qətiyyətli rəhbərliyinin Azərbaycanın tam və mütləq qələbəsini təmin etdiyi qeyd olunur.

# MÜNDƏRİCAT

Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ............................3

Tərtibçidən.......................................................................................6

Məqalələr.........................................................................................8